BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
*№2 Humanitar elmlər seriyası 2010*

# AZƏRBAYCAN MƏTBUATINDA TRABLİS SAVAŞINA MÜNASİBƏT HAQQINDA (1911-1912-ci illər)

**S.F.BAXŞƏLİYEV**
*Azərbaycan Müəllimlər İnstitutu*
*Samir@mail.ru*

*Məqalədə 1911-1912-ci illərdə Osmanlı Türkiyəsi ilə İtaliya arasında baş vermiş müharibədən bəhs edilir. O dövrdə müstəmləkə senzurasının bütün məhdudiyyətlərinə baxmayaraq Şimali Azərbaycan mətbuatının demokratik orqanlarında - «İqbal», «Sədayi-Vətən» və digər qəzetlərdə bu müharibə ilə bağlı bir çox məqamlar geniş işıqlandırılırdı. Bununla birlikdə o dövr Azərbaycan mətbuatında ayrı-ayrı müəllif yazılarına da yer verilirdi. Ümumiyyətlə, Trablisqərb savaşı mətbuat səhifələrində «Osmanlı – İtaliya savaşı», «Türkiyə - İtaliya müharibəsi» və digər başlıqlar altında teleqraf xəbərləri şəklində açıqlanmış, Türkiyənin daxili durumuna dair yazılara da yer verilmişdi.*

XX yüzilin sonlarında gənc İtaliya imperializmi tarix səhnəsinə çıxdı. Bu imperializm gənc olmasına baxmayaraq yırtıcı və acgöz xarakterə malik idi. İtaliya müstəmləkələr ələ keçirmək üçün fəallıq göstərməyə başladı. Ancaq o, bir qədər gecikmişdi. Belə ki, İngiltərə və Fransa artıq dünyanın bir bir çox ölkələrini müstəmləkəyə çevirmişdilər. Osmanlı dövlətinin Quzey Afrikadakı Trablisqərb bölgəsi (Benqazi də daxil olmaqla) hələ istila edilməmişdi. İtaliya Osmanlı imperatorluğunun Quzey Afrikadakı son torpaqları olan Trablisqərb vilayətini ələ keçirməyi öz istilaçılıq məqsədinə çox münasib hesab edirdi.

İngiltərə və Fransa kimi böyük dövlətlər İtaliyanı narazı salmamaq üçün onun bu niyyətinə «yaşıl işıq» yandırdılar. Xüsusilə, İngiltərə böyük bir rəqib və təhlükə kimi gördüyü Almaniyanın Quzey Afrikada möhkəmlənməsindən ehtiyat etdiyi üçün İtaliyanı belə bir addım atmağa əslində diplomatik yolla təhrik etdi. Türkiyə hökuməti İtaliyanın istilaçılıq məqsədini anlayaraq bölgədəki İtaliya banklarının fəaliyyətini (XX yüzilin əvvəllərində) dayandırmışdı. Almaniya isə bundan istifadə edib, orada öz bankını açmaq istəyirdi. «Sədayi-Vətən» qəzetinin 2 yanvar 1912-ci il tarixli sayında İtaliyanın «Avanti» qəzetinə istinad edilərək İtaliyanın açdığı savaşın səbəblərindən danışılarkən deyilirdi ki, Osmanlı dövləti İtaliyanın Trablisqərbdəki banklarını bağladıqdan sonra Almaniya burada öz bankını açmaq istədi. Durum belə olduqda İngilətərə İtaliyanın xarici işlər nazirinə dərhal «Trablisi işğal etməyi təklif etdi, bunun əksi olarsa, İngiltərənin oranı işğal edəcəyi ilə təhdid etdi və dedi ki, heç vaxt İngiltərə izin verməyəcək ki, Germaniya (Almaniya –müəllif) Afrika sahillərində möhkəmlənsin» (5).

İtaliya Trablisqərbi ələ keçirmək üçün ciddi şəkildə savaş hazırlığına başladı. 1887-1909-cu illərdə İngiltərə, Fransa, Avstriya - Macarıstan, Almaniya və Rusiya ilə müqavilələr imzalayaraq qarşıdakı savaş üçün əlverişli diplomatik şərait yarada bildi (2, 361).

İtaliya 29 sentyabr 1911-ci il tarixində Osmanlı dövlətinə müharibə elan etdi. Beləliklə, Trablisqərb savaşı başlamış oldu. İtaliya ən müasir silahlarla təchiz edilmiş 36 minlik ordunu Trablisqərb vilayətinə yeritdi (3). Bu qüvvə çox tezliklə istər canlı qüvvə baxımından, istərsə də silah və digər sursatla daim durmadan artırıldı. Bunun qarşısında bölgədə Osmanlı qüvvəsi çox az idi və silah ilə çox zəif təchiz edilmişdi. Bundan istifadə edən İtalyan qüvvəsi 1911-ci ilin 18 və 20 oktyabrında Xams və Benqazi şəhərlərini ələ keçirdi (3). Bununla belə italyanlar donanmanın yardımından istifadə edərək sahil zolağında möhkəmlənə bildilər. İtaliyanın o zamankı baş naziri Giolittinin etirafına görə savaşda İtaliya tərəfindən 100 mindən çox qüvvədən istifadə edilmişdir. Trablisdəki türk qüvvələri isə 3-4 min nəfər idi (1, 29).

Bölgədəki sayca çox az olan və zəif silahlanmış Osmanlı qüvvəsi yerli sənusilər ilə əlaqəyə girərək polkovnik Nəşət bəyin rəhbərliyi altında çox ağır şəraitdə müdafiə işlərinə başlayaraq bir neçə yerdə, o cümlədən Tobruk və Qərnədə qüvvətli müdafiə xətlərini qura bildi.

Mərkəzdən – İstanbuldan əlavə qüvvə, yardım göndərmək çox çətin idi. Belə ki, dəniz yolu İtaliyanın Osmanlı donanmasından dəfələrlə güclü olan donanmasının nəzarəti altında idi. Buna görə də, quru yolla, Misir və Tunis vasitəsilə çox gizli şəkildə zabit, pul, silah və s. göndərmək mümkün oldu. Bu isə olduqca çətinliklə həyata keçirildi. Bütün bunlara baxmayaraq mərkəzdən göndərilən vasitəçilərin böyük təşkilatçılığı ilə yerli əhalidən, xüsusilə sənusilərdən də daxil olmaqla möhkəm müdafiə qüvvəsi yaradıldı. İtaliya ordusu gözləmədiyi müqavimətə rast gələrək sahil zolağında ilişib qaldı və ölkənin içərilərinə doğru irəliləyə bilmədi.

Trablisqərbin müdafiə qüvvəsi əsas hücuma keçərək İtaliya ordusunu tələfata uğradırdı. «Sədayi - Vətən» qəzetinin yenə 1912-ci il 2 yanvar tarixli sayında bildirilirdi ki, Xomsda türk və yerli ərəblərin birləşmiş dəstəsi İtaliyanın 1500 nəfərdən ibarət kəşfiyyat qrupuna hücum edərək onu darmadağın etmiş, sağ qalanlar isə qaçmışlar» (5). «Sədayi –Vətən» qəzetinin 1912-ci il 3 yanvar tarixli sayında isə «Meydan-i mücahiddən bir səda» başlığı ilə bir zabitin (türk) məktubu dərc edilmişdi. Bölgədə istilaçılara qarşı müqavimət ruhunun nə qədər yüksək olduğu məktubdan aydınca görünür. Zabitin – kapitan Xəlilin atasına yazdığı məktubda deyilir:

«Əziz atam, əfəndim! Səlamətlik müjdənizi verən məktubunuzu iki gün bundan qabaq aldım. Ərz-i təşəkkür eyləyib əllərinizdən öpürəm. Biz 43 gündür ki, düşmən ilə vuruşmaqda varıq, daima vəhşi və haqşünas (haqq-say itirən-müəllif) italyanları əzməkdəyik. Qüvvətimiz və vəsaitimiz nə qədər az isə də, düşməni ciddi bir şaşqın hala salmışıq. Bunu deyə bilərəm ki, İtalya qoşunu dava qiymətincə heç zada dəyməyən və adətən qorxaq bir qonşudur. Qoşunumuz və ərəblər axırıncı adamımız qalıncaya qədər müdafiədə olmağa və dava müddətində ölməyə hazırdırlar. Yevropanın (Avropanın – müəllif) mədəni pərdəsi altında İtaliyanın oynamaq istədiyi bu səlib müharibəsi faciəsinin aləmi-islamiyyət üçün nə böyük bir mənanı əhatə etdiyini afrikalılar çox cəld duydular, ona görə də, bu gün hərbi – müqəddəs elan etdilər. Düşmənin müqabilində bir ovuc əsgər ilə on beş - iyirmi min ərəb mücahidi durub» (6).

Türk zabitlərinin, gördüyü tədbirlər nəticəsində yerli əhali vətən uğrunda silaha sarıldı. Qəzet səhifələrində bununla bağlı geniş məlumatlar verilir. «Sədayi- Vətən»

bildirirdi ki, «italyanların xətti hərəkəti üstündə olan ərəb kəndlərinin tamam silah götürən kişləri kəndlərdən çıxıb gediblər» (4).

Bilindiyi kimi, hərbi əməliyyatlarda təyyarədən ilk dəfə istifadə edən italyanlar olub. Onlar mövqeləri havadan bombardman edirdilər. Bundan başqa təyyarədən təbliğat vasitəsi kimi də istifadə olunurdu. «Sədayi –Vətən»in verdiyi məlumatdan aydın olur ki, İtaliyanın «hava maşınçıları ərəblərin çadırları, qurulan yerlərə havadan intibahnamələr töküb onları İtaliyaya itaət etməgə dəvət ediyorlar» (5). Ancaq onların bu təbliğatı bir nəticə vermir, yerli əhalinin təmsilçiləri silaha sarılıb istilaçılar ilə bərabər olmayan qüvvə şəraitində vuruşurdular.

Qəzet səhifələrində italyanların yerli əhaliyə qarşı amansız, vəhşicəsinə davrandıqları da əksini tapıb. Trablisqərb savaşının iştirakçısı olan kapitan Xəlil bəyin yuxarıda haqqında danışılan məktubunda italyanların qatilliyindən söz açılır. Məktubun müəllifi canlı şahidi olduğu bir səhnəni belə təsvir edir: «Qoyub çıxdığımız şəhərin kənarında dörd yüz uşaq nəşi tapdıq. Aramızda öylə atalar var idi ki, qoyun kimi əl-ayağı bağlanıb kəsilmiş ölənlərinin meyitini tapırdılar. Artıq irəli gedə bilmədik ki, qalan ailələrin necə olduğunu bilək» (6).

Yuxarıda qeyd etmişdik ki, İstanbuldan Trablisqərbə lazım olan həcmdə yardım göndərmək mümkün deyildi. Könüllülər, pul və müəyyən miqdarda hərbi material çox çətinliklə gizli şəkildə Misir və Tunis ərazilərindən göndərilirdi. Könüllülər və ianə yardımı digər müsəlman ölkələrindən də gəlirdi. Bütün bunlar haqqında qəzet səhifələrində məlumatlar yerləşdirilib. «Sədayi-Vətən»in bir xəbərində deyilir ki, Misir höküməti Misir vasitəsilə Trablisqərbə gizli şəkildə yardım göndərilməsinə qarşı şiddətli tədbirlər görürdü. Məsələn, bir dəfədə sərhəddə böyük bir silah karvanı ilə Türkiyənin on nəfərdən ibarət zabit və əsgəri saxlanılmışdı (5). O zaman Misir artıq İngiltərənin müstəmləkəsi idi. Bu tədbirlər də İngiltərənin təzyiqi ilə həyata keçirilirdi. «Sədayi–Vətən»in 24 fevral 1912-ci il tarixli sayında da Trablisqərb sərhədi yaxınlığında yardıma gedən bir çox müsəlmanın həbs edilərək İskəndəriyyəyə aparıldığı bildirilir (7). Qəzetin 3 dekabr 1911-ci il tarixli sayında isə Trablisqərbə getmək məqsədilə Tunisdə sərhədi keçmək istəyən bir neçə Türkiyə əsgərinin həbsindən danışılırdı (4).

Deyildiyi kimi, İtaliya qüvvəsi Trablisqərbin sahil zolağında ilişib qalmış və ölkənin içərilərinə doğru irəliləyə bilmirdi. Bu isə İtalyan hərbçilərinin ruhdan düşməsinə, İtaliya hökümətinin təşvişinə, məyusluğuna səbəb oldu. İtaliya müxtəlif vasitələrlə Osmanlı dövlətini özünün xeyrinə sülhə razı salmağa çalışır, Osmanlı dövləti isə belə bir sülhə heç bir halda razılıq vermirdi. Bu məsələdə böyük dövlətlər Türkiyəyə qarşı səmimilik göstərmir, necə deyərlər, diplomatik oyun oynayırdılar. Onlar guya vasitəçilik edir, əslində isə ciddi addımlar atmırdılar. İtaliyanın Osmanlını sülh danışıqları masasının arxasında oturmağa məcbur etmək üçün təbir təzyiq vasitəsi isə boğazlara, Rodos və Oniki adalarına hücum planı idi. Bütün bunlar zamanın bir sıra dövri mətbuatında aydınca əksini tapıb. «Sədayi-Vətən»in 24 fevral 1912-ci il tarixli sayında Parisdən alınan məlumatlara əsasən Osmanlı hökumətinin İtaliya ilə Trablisqərbin ilhaqına əsaslanan bir sülhə qətiyyən razı olmadığı bildirilirdi (7). Qəzetin bundan iki gün sonrakı sayında isə, Osmanlı hökumətini sülhə məcbur etmək üçün İtaliya donanmasının boğazlara hücuma hazırlaşdığından və hər an boğazlarda savaş başlaya biləcəyindən, buna görə də, Osmanlı hökuməti tərəfindən ticarət

gəmilərinin gecə boğaza girməsinə yasaq qoyulduğundan danışılırdı. Buradan aydın olur ki, Türkiyə ictimaiyyəti alçaldıcı sülhü təhqir sayır (8).

Çar senzurasına baxmayaraq sözü gedən dövrdə Rusiyanın Türkiyəyə qarşı münasibətinin iç üzü də mətbuat səhifələrində əksini tapıb. Buradan məlum olur ki, İtaliyanın təhdidi qarşısında Osmanlı hökuməti boğazları bağlamışdı ki, bu da xüsusilə Rusiyanın ticarətinə zərbə vurmuşdu. Osmanlı hökuməti boğazları açmaq üçün Rusiyanın qarşısına belə bir şərt qoyur: Rusiyanın gəmiləri boğazlardan növbə ilə bir – bir keçəcək (ancaq Qara dəniz donanmasına aid olan), bunun əvəzində Rusiya kapitulyasiya və yolları təmir hüququndan imtina edəcək və Balkanlarda əmin - amanlığı təmin edəcək (4).

«İqbal» qəzetinin dərc etdiyi bir yazıda Rusiya – Türkiyə münasibətlərinə xüsusi diqqət yetirilirdi. Buradan aydın olur ki, Rusiya Osmanlı hökumətindən Urmiyadakı hərbi qüvvəsini çıxarmağı tələb edir, əks halda quru yolla Kürdüstana hərbi qüvvə yeridəcəyi bildirilirdi (9).

«İqbal» savaş dövründə Türkiyənin daxili durumu və bu duruma İtaliyanın münasibəti ilə bağlı maraqlı yazı dərc etdirir, məlumatlar verirdi. Sözü gedən dövrdə ümumiyyətlə, ikinci məcburiyyət dövründə ölkədə bir-birinə qarşı əks mövqedə duran əsas siyasi partiyalar «İttihad və Tərəqqi» və «Hürriyyət və İtilaf» idi. Qərbin digər dövlətləri kimi, İtaliya da «İttihad və Tərəqqi»yə mənfi münasibət bəsləyirdi. «İqbal» bildirirdi ki, İtaliya müxalifətçi «Hürruriyyət və İtilaf»ın tərəfində olub onun qalib gəlməsini istəyirdi. Çünki mülkiyyətçi ruhlu «İttihad və Tərəqqi» Trablisqərb savaşında İtaliyaya qarşı barışmaz mövqedə dururdu ki, bu da İtaliyanın işinə yaramırdı. Qəzet hətta, «İtalyanların ümidi kimdə?» kimi başlıqda bu məsələyə xüsusi diqqət çəkərək bu ümidin «Hürriyyət və İtilaf» da olduğunu göstərirdi (9). «İqbal»ın məlumatı bəhs olunan dövrdə Türkiyənin daxili durumunu da aydınlaşdırırdı.

Böyük dövlətlərin təzyiqi və Balkan savaşının başlaması ilə bağlı olaraq Osmanlı hökuməti 1912-ci il 15-18 oktyabr tarixində İtaliya ilə Trablisqərbin istila edilməsinə əsaslanan sülh müqaviləsini imzalamalı oldu. Əslində İtaliya hərbi qüvvə hesabına qalib gəlmədi. Yaranmış beynəlxalq şərait onun xeyrinə oldu.

1911-1912-ci il Trablisqərb savaşı dövrün Azərbaycan mətbuatında geniş şəkildə işıqlandırılmışdı. Çarizm senzurasının təzyiqinə baxmayaraq savaşın iç üzü mümkün qədər doğru açıqlanıb. Senzuranın hücumundan yayınmaq üçün tez-tez xarici informasiya qaynaqlarının adları çəkilərək onlara istinadlar edilirdi.

Bununla birlikdə o dövr Azərbaycan mətbuatında ayrı – ayrı müəllif yazılarına da yer verilirdi. Ümumiyyətlə, Trablisqərb savaşı mətbuat səhifələrində «Osmanlı – İtaliya savaşı», «Türkiyə - İtaliya müharibəsi» və digər başlıqlar altında teleqraf xəbərləri şəklində açıqlanmış, Türkiyənin daxili durumuna dair yazılara da yer verilmişdi. Təbii ki, bir məqalədə bunların təhlilinə toxunmaq mümkün deyil.

## ƏDƏBİYYAT


1. Hamdi Ertuna. 1911-1912-ci il Osmanlı İtalyan harbi ve Kolağazı Mustafa Kemal. Genel Kurmay A.T.A.S.E. Başkanlığı Yayınları. Ankara: 1984.
2. Türk Ansiklopedisi. c.31, MEB, Ankara: 1982.
3. http://www.bilgipasaji.com/forum/tarih-cografiya.
4. «Sədayi-Vətən» qəz., 1911, 3 dekabr
5. «Sədayi-Vətən» qəz., 1912, 2 yanvar
6. «Sədayi-Vətən» qəz., 1912, 3 yanvar

7. «Sədayi-Vətən» qəz., 1912, 23 fevral
8. «Sədayi-Vətən» qəz., 1912, 26 fevral
9. «İqbal» qəz., 1912, 14 mart

## ОТЗЫВЫ О ТРАБЛИССКОЙ ВОЙНЕ В ОРГАНАХ ПЕЧАТИ СЕВЕРНОГО АЗЕРБАЙДЖАНА (1911-1912)

**С.Ф.БАХШАЛИЕВ**

### РЕЗЮМЕ

В статье указывается политика великих держав в отношении Османской империи, которая приводила к войне между Италией и Османской империей в 1911-1912 гг. На страницах демократической печати Северного Азербайджана как «Седайи Ветен» и «Игбал», и других, несмотря на все запреты царской цензуры, появились многие статьи, которые подробно описывали ход этой войны. Эти газеты под различными заголовками пытались своевременно известить наших соотечественников о положении внутри Османской империи. Авторы этих статей не скрывали свои симпатии османам и огорчения по поводу их неудач на боевых фронтах.

## SOME ISSUES OF BALKAN WARS AND THEIR REFLECTİON IN NORTHERN AZERBAIJAN PRESS

**S.F.BAKHSHALIYEV**

### SUMMARY

Some issues on the course and results of Balkan wars of 1912-1913 with participation of the Ottoman Empire are described in the article. Articles published in various Azerbaijani newspapers of that period such as “Kaspiy”, “Irshad” etc. clearly illustrate painful reaction of the Azerbaijani people to the failure of Turks on the battle-front. Certain samples of considerations and opinions of authors of that period about the reasons of unsuccessful policy of Young Turkic Government of the Ottoman Empire are reflected in the article as well. In the conclusion of the article, it is shown that the coverage of the war issues by our press in tsar censorship was of progressive character.